


# Ölkəmizi tanıyaq




# Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşmasında əvəzsiz rol oynayır





“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Bakıda səfərdə olan Naxçıvan məktəbliləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə tər güllər düzüblər.

Sonra Şəhidlər xiyabanına gələn şagirdlər ölkəmizin azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə güllər düzüblər.

Bakının ən hündür nöqtəsindən paytaxtın mənzərəsini seyr edən məktəblilərə Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

* * *

“Ölkəmizi tanıyaq” tur-aksiyasının Naxçıvan Muxtar Respublikasından Bakıya gələn iştirakçıları Dövlət Bayrağı meydanı ilə tanış olublar.

Əvvəlcə tur-aksiya iştirakçılarına Prezident İlham Əliyevin Bakı bulvarının Dövlət Bayrağı meydanı ilə birləşdirilməsinə dair verdiyi tapşırıqlar əsasında bu ərazidə həyata keçirilən abadlıq və tikinti-quruculuq işləri haqqında məlumat verilib. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı meydanının yaradılması barədə sərəncam imzalayıb. Hər il noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Məlumat verilib ki, Dövlət Bayrağı meydanının təməli 2007-ci il dekabrın 30-da Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Meydan üçün seçilmiş yer dövlət bayrağının paytaxtın müxtəlif yerlərindən görünməsinə imkan yaradır. 2010-cu il sentyabrın 1-də isə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı meydanının təntənəli açılış mərasimi keçirilib.

Qeyd olunub ki, ümumi ərazisi 60 hektar olan meydanda bütün infrastruktur yaradılıb. Burada inşa olunmuş dayağın hündürlüyü 162 metrdir. Qurğunun ümumi çəkisi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, çəkisi isə təqribən 350 kiloqramdır. Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

Diqqətə çatdırılıb ki, meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, Dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb.

Tur-aksiya iştirakçıları Prezident İlham Əliyevin təşəbbüsü ilə meydanda səkkizguşəli ulduz formasında yaradılmış Dövlət Bayrağı Muzeyi ilə də tanış olublar.

Bildirilib ki, muzeydə müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin, xanlıqların, o cümlədən İrəvan xanlığının bərpa olunmuş bayraqları, həmçinin XVII-XVIII əsrlərə aid bayraqların uc elementləri, gerblər, Azərbaycan Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, poçt markaları, pul nişanlarının nümunələri, orden və medalları, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin yaranması, formalaşması və inkişafını, Prezident İlham Əliyevin ölkəmizin tərəqqisi ilə bağlı fəaliyyətini əks etdirən çoxsaylı fotolar və sənədlər, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ali dövləti vəzifəyə seçildikdən sonra andiçmə mərasimlərində öpdükləri dövlət bayraqları, Silahlı Qüvvələrin Ali Baş Komandanının bayrağı, Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqları və mərasim geyimləri nümayiş olunur.

Vurğulanıb ki, dünyada bu cür nadir muzeylərdən biri olan Dövlət Bayrağı Muzeyində, həmçinin Ginnes dünya rekordları təşkilatının Azərbaycanın dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edən sertifikatı, müxtəlif kitablar, fotoşəkillər, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəki səfirliyinin binası üzərində dalğalanmış bayraq da nümayiş edilir. Buradakı eksponatların çoxu ilk dəfə nümayiş olunur. Muzeydə multimedia qurğusu da vardır.

Tur-aksiya iştirakçıları Dövlət Bayrağı meydanından zəngin təəssüratla ayrılıblar.

Dövlət Bayrağı meydanı ilə tanışlıqdan sonra naxçıvanlı şagirdlər bulvarda gəziblər.

* * *

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Bakıya gələn Naxçıvan şəhərinin məktəbliləri Beynəlxalq Muğam Mərkəzini ziyarət ediblər.

Məktəblilərə Dənizkənarı Milli Parkda yerləşən mərkəz haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu mərkəz fondun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə inşa edilib.

Qeyd olunub ki, 2005-ci ilin avqustunda Prezident İlham Əliyevin və ölkəmizin birinci xanımı Mehriban Əliyevanın, UNESCO-nun sabiq baş direktoru Koişiro Matsuuranın iştirakı ilə təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Ən müasir texnologiyadan istifadə edilməklə tikilən binanın inşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə olunub. 2008-ci il dekabrın 27-də istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzində 350 yerlik konsert salonu, klub, 80 nəfərlik restoran, dərs otaqları, səsyazma studiyası vardır.

Şagirdlərin diqqətinə çatdırılıb ki, Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada UNESCO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Mərkəz ilə yaxından tanış olan şagirdlər burada Azərbaycanın görkəmli muğam ifaçılarının büstlərinə baxıblar.

Sonra uşaqlar gənc muğam ifaçılarının konsertini dinləyib və ifaçılarla görüşüblər.

Naxçıvanlı şagirdlər Beynəlxalq Muğam Mərkəzindən xoş təəssüratlarla ayrılıblar.

* * *

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Bakıya gələn Naxçıvan şəhərinin məktəbliləri Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində olublar.

Naxçıvan şəhərindəki məktəblərin IX-XI siniflərində təhsil alan şagirdlərə muzeyin tarixi, fəaliyyəti, burada qorunan müxtəlif əsrlərə aid çox dəyərli eksponatlar haqqında ətraflı məlumatlar verilib. Bildirilib ki, məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin 1895-1901-ci illərdə tikdirdiyi sarayda fəaliyyət göstərən Milli Azərbaycan Tarixi Muzeyində 3 yüz mindən artıq tarixi eksponat qorunur və H.Z.Tağıyevin xatirə muzeyi yerləşir.

Muzey Azərbaycan tarixinin bütün dövrlərinə aid maddi və mənəvi mədəniyyət abidələrinin toplanılması, öyrənilməsi, nümayişi və təbliği ilə məşğul olan elmi-tədqiqat və mədəni-maarif müəssisəsidir. Muzeyin ekspozisiyaları tariximizin nə qədər qədim və zəngin olduğunu göstərir.

Muzeydə məktəblilər ekspozisiyalar və eksponatlarla yaxından tanış olublar.

Sonra şagirdlər Azərbaycan Milli İncəsənət Muzeyinə gəliblər. Muzeyin tarixi və fəaliyyəti barədə məlumat verilərək qeyd olunub ki, müəssisə müstəqil muzey kimi 1936-cı ildə təşkil olunub. Burada orta əsrlərə, intibah dövrünə, qədim Azərbaycana aid olan eksponatlar, rəsm əsərləri, tətbiqi incəsənət nümunələri və s. nümayiş etdirilir.

Müəssisədə, həmçinin, görkəmli İtaliya, alman, rus rəssamlarının portret, mənzərə və digər janrlarda yaratdıqları incəsənət nümunələri var.

Məktəblilər burada nümayiş etdirilən incəsənət nümunələri, rəsm əsərləri ilə tanış olublar. Bu tanışlıq onların tariximiz, mədəniyyətimizlə bağlı təəssüratlarını xeyli zənginləşdirib.

* * *

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Bakıda səfərdə olan Naxçıvan məktəbliləri Azərbaycan Xalça Muzeyində olublar.

Məktəblilərə Azərbaycan Xalça Muzeyinin yaranma tarixi barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, bu muzey xalçanı Azərbaycanın digər ənənəvi sənət növləri ilə qarşılıqlı əlaqədə nümayiş etdirən bir milli mədəniyyət xəzinəsidir. Onun kolleksiyasına xalça, tikmə, geyim, mis qablar, zərgərlik əşyaları, şüşə, taxta və keçə məmulatları daxildir.

Diqqətə çatdırılıb ki, muzeyin “qızıl fondu”nu xovlu xalçalar təşkil edir. Burada Azərbaycanın 7 əsas xalçaçılıq məktəbinin nümunələri təqdim olunur. Muzeyin kolleksiyasında xovsuz xalçaların da nadir nümunələri saxlanılır.

Muzeyin zəngin kolleksiyası ilə tanış olan şagirdlər Azərbaycan tarixinə və mədəniyyətinə, xüsusən də xalçalarına heyranlıqlarını ifadə ediblər.

Qrupun rəhbəri Elşən Qabilov bildirib ki, dövlət başçısının təşəbbüsü ilə reallaşan maarifləndirici tur-aksiya məktəblilər tərəfindən maraqla qarşılanır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri Bakı şəhərinin tarixi və mədəniyyət abidələri, digər görməli yerləri ilə yaxından tanış olurlar.

Muzeylər və digər yerlərlə tanışlıq şagirdlərdə xoş təəssürat yaradır, xatirələrində iz salır. Bütün bunlar təhsilin inkişafına dövlət qayğısının nəticəsidir.

Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin şagirdi Altay Cəfərli tur-aksiyada iştirak etdiyinə görə sevincini belə ifadə edib: “Bu aksiya yetişməkdə olan gənc nəsil üçün çox əhəmiyyətlidir. Biz tur-aksiya çərçivəsində həm maariflənir, həm də yaz tətilini səmərəli keçiririk”.






* * *

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın iştirakçıları - Bakı məktəbliləri Naxçıvan Dövlət Universiteti və Naxçıvan şəhərində fəaliyyət göstərən sənaye müəssisələri ilə tanış olublar.

Naxçıvan Dövlət Universitetinin kampusu ilə tanışlıq zamanı ali təhsil ocağının tədris işləri üzrə prorektoru Surə Seyid şagirdlərə ali təhsil ocağı barədə ətraflı məlumat verib. Bildirilib ki, universitetin 108 hektarlıq ərazisində 16 tədris korpusu, elektron kitabxana, konservatoriya, sosial xidmət mərkəzi, universitet xəstəxanası, baytarlıq klinikası, Olimpiya İdman Mərkəzi, 2 stadion, müasir tipli tələbə evi yerləşir.

Qeyd olunub ki, hazırda ali təhsil ocağında 12 fakültədə 57 ixtisas üzrə 6 min nəfərə yaxın tələbə təhsil alır. Bu gün dünyanın 12 ölkəsindən 350-dən çox xarici tələbə universitetdə təhsilini uğurla davam etdirir. Bu ali məktəb 80-dən çox tanınmış dünya universiteti ilə tərəfdaşlıq etməklə yanaşı, bir sıra beynəlxalq layihələrdə də uğurla təmsil olunur. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) ilə birgə həyata keçirilən “Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsi isə Azərbaycan ali məktəbləri üzrə ən irihəcmli layihədir. Ali təhsil ocağı Azərbaycanda elektron sənəd dövriyyəsinə və elektron idarəetmə sisteminə malik yeganə universitetdir.

Diqqətə çatdırılıb ki, Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatının Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə reallaşdırdığı “Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi” layihəsinin nəticələrinə əsasən, Naxçıvan Dövlət Universiteti reytinq cədvəlində birinci yer tutub. Universitet möhkəm milli əsaslara malik, dövlətçilik təmayüllü və dünyaya inteqrasiya etmiş müasir tipli ali təhsil ocağıdır. Dünya birliyində və ölkənin ali təhsil sistemində özünəməxsus yeri olan universitet daim yeniləşmək və inkişaf etmək istiqamətində tarixi yolunu davam etdirməkdədir.

Naxçıvan Avtomobil Zavodunda qonaqlara məlumat verilib ki, zavod 2010-cu ildən fəaliyyətdədir. Burada Almaniyadan, İtaliyadan və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb. İstehsal prosesi konveyer üsulu ilə təşkil edilib. Bu ilin sonunadək Naxçıvan Avtomobil Zavodunda əlavə 7 “NAZ-Lifan” modelinin istehsalına başlanması planlaşdırılır. Zavod Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Hazırda zavodda 10 modeldə “NAZ-Lifan” avtomobili istehsal olunur. Respublikada sifarişlərin artması nəzərə alınaraq, zavod model sırasını genişləndirir.

“Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq “Badamlı” zavodundan başlayıb. Burada bildirilib ki, muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması “Badamlı” mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarıb, 2004-cü ildə özəlləşdirilən müəssisədə daha keyfiyyətli məhsul istehsalına başlanılıb. “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat verib. Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9 min 590, istehsal sahəsi isə 3 min 600 kvadratmetr olan yeni istehsal müəssisəsi 2009-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Vurğulanıb ki, zavodda məhsulun keyfiyyətinə ciddi nəzarət edilir. Burada Almaniya istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulub. Laboratoriyada suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bunun nəticəsidir ki, “Badamlı” mineral suyu beynəlxalq sərgilərdə yüksək qiymətləndirilir. “Gəmiqaya Mineral Sular” MMC-də bütün istehsal prosesi ISO keyfiyyətli idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə uyğun qurulub. Bu baxımdan iqtisadi əlaqələr daha da genişləndirilib, cari ilin ötən dövründə istehsal edilən “Badamlı” mineral süfrə suyunun 27 faizi muxtar respublika ərazisində, 70 faizi Bakı şəhərində və müxtəlif regionlarda satışa çıxarılıb, 3 faizi isə Rusiya Federasiyasına ixrac olunub. Mineral suyun digər xarici ölkələrə ixracı istiqamətində işlər davam etdirilir.

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiya iştirakçıları Naxçıvan şəhərindən füsunkar təbiəti, tarixi abidələri ilə diqqət çəkən Ordubad rayonuna yola düşüblər.

* * *





Səkkiz rayonun 200-ə yaxın şagirdi “Ölkəmizi tanıyaq” devizi ilə təşkil olunan maarifləndirici tur-aksiya çərçivəsində Azərbaycanın “şimal qapısı” sayılan Qusar rayonunun görməli yerləri ilə tanış olublar.

Ağsu, Hacıqabul, Qobustan, Qubadlı, Şuşa, Cəbrayıl, Zəngilan və Füzuli məktəbliləri Qusar şəhərinin girişindəki Bayraq meydanında qarşılanıblar. Rayon icra hakimiyyətinin, mədəniyyət və turizm, təhsil şöbələrinin nümayəndələri şagirdlərə Qusar rayonu haqqında ətraflı məlumat veriliblər.

Qonaqlara rayonda yaşayan azsaylı xalqların folklor nümunələri təqdim edilib.

Sonra tur-aksiya iştirakçıları “Şahdağ” Turizm Mərkəzi ilə tanış olub, Həzrə kəndində “Şeyx Cüneyd” türbəsini ziyarət edib, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyi, olimpiya idman kompleksi və rəsm qalereyası ilə yaxından tanış olublar.

* * *

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar davam edir.

Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə tur-aksiyada iştirak edən Saatlı, Neftçala və Sabirabaddan olan məktəblilər Gəncənin tarixi abidələri, müqəddəs məkanları, mədəniyyət mərkəzləri, eləcə də son illər şəhərdə inşa edilən turizm, istirahət və sosial obyektlərlə tanış olublar.

Maarifləndirici tur-aksiya iştirakçılarının üz tutduqları ilk məkan böyük mütəfəkkir, dahi Azərbaycan şairi Nizami Gəncəvinin türbə kompleksi olub. Əvvəlcə məktəblilər Nizaminin qəbrini ziyarət ediblər. Komplekslə tanışlığı davam etdirən şagirdlər türbə ətrafında yaradılan şəraitlə tanış olublar. Nizami Gəncəvinin poemalarının motivləri əsasında işlənən heykəllərə baxıb, şəkillər çəkdiriblər.

Daha sonra tur-aksiya iştirakçıları Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzinə gəliblər. Burada məktəblilər vaxtilə dahi şairin əsərlərinə həsr olunan və hazırda dünyanın Metropolitan, Viktoria Albert, Drezden, Vatikan kimi muzeylərinin ən qiymətli eksponatları sırasında yer alan, “Xəmsə” motivləri əsasında işlənən miniatürlərin surətləri ilə tanış olublar.

Müsəlman dünyasının müqəddəs ziyarətgahlarından olan İmamzadə Dini Memarlıq Kompleksi ilə tanışlıq da şagirdlər üçün maraqlı keçib. Məlumat verilib ki, bu müqəddəs məkanda 739-cu ildə İmam Məhəmməd Bağırın oğlu Mövlanə İbrahim dəfn edilib. İmamzadə əsrlərlə mömin insanların tez-tez ziyarət etdiyi müqəddəs məkan olub. Prezident İlham Əliyevin təşəbbüsü ilə ziyarətgahda geniş quruculuq və abadlıq, yenidənqurma işləri həyata keçirilib.

İnsanların mənəvi saflıq, doğruluq və halallıq məkanı olan İmamzadə hər kəsdə olduğu kimi, məktəblilərdə də böyük maraq yaradıb.

* * *

“Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçısı olan Yevlax, Ucar, Zərdab, Ağdam, Laçın, Kəlbəcər, Xocalı və Xocavənd rayonlarının məktəbliləri Lənkəran rayonuna səyahətlərini davam etdiriblər.

Məktəblilər əvvəlcə Hirkan Milli Parkına gəliblər. Məlumat verilib ki, Lənkəran və Astara inzibati rayonlarının ərazisində yerləşən Hirkan Milli Parkı zəngin flora və faunasına görə nəinki Azərbaycanın, dünyanın ən nadir və unikal milli parkı hesab olunur. Burada buzlaşma dövründən qabaqkı endemik, relikt dövr bitkiləri, o cümlədən heyvanat aləmi qorunub saxlanılır. Hirkan Milli Parkının ərazisi 40 min 358 hektardır. Azərbaycanın “Qırmızı kitab”ında olan ağac və kol bitkilərinin yarıdan çoxu Hirkan Milli Parkının ərazisində var. Parkda təkcə nadir bitki aləmi deyil, nəsli tükənməkdə olan heyvan növləri də mühafizə edilir. Burada 117 növ quş və heyvanat aləmi, 1204 növ nadir bitki və 99 növ ağac qorunur.

Hirkan Milli Parkı ilə tanışlıqdan sonra məktəblilər “Xanbulan” istirahət mərkəzinə səfər edib, çay plantasiyalarında və sitrus meyvə bağlarında olublar.

Lənkəran şəhərindəki Qoşa qala qapıları, Dairəvi qala, “Mayak” binası, Bayraq meydanı və tarix-diyarşünaslıq muzeyi ilə tanışlıq da məktəblilərdə xoş təəssürat oyadıb.

Daha sonra tur-aksiyanın iştirakçıları iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsini ziyarət edib, qəhrəmanın Lənkəran şəhərindəki ev-muzeyində nümayiş etdirilən eksponatlarla tanış olublar.

* * *

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar davam edir.

İsmayıllı-Qəbələ-Şəki marşrutu üzrə tur-aksiyada iştirak edən Bərdə, Ağcabədi və Mingəçevirdən olan məktəblilər Qəbələnin tarixi abidələri, turizm obyektləri, mənzərəli yerləri, adət-ənənələri, eləcə də son illər inşa edilən istehsal müəssisələri və sosial obyektləri ilə tanış olublar.

Qəbələyə səfər edən şagirdlərin üz tutduqları ilk məkan Heydər Əliyev Mərkəzi olub. Mərkəzi ziyarət edən məktəblilər burada ulu öndər Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əks etdirən fotoşəkillərə və sənədlərə baxıblar. Şagirdlər muzeyin qarşısında kollektiv xatirə şəkli çəkdiriblər.

Tur-aksiya iştirakçıları sonra “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksində, Heydər Əliyev adına Konqres Mərkəzində, tarix-diyarşünaslıq muzeyində, “Beltmann” Piano Fabrikində, Qəbələ Konserv Zavodunda olublar.

Nic qəsəbəsinə gələn məktəblilərə buradakı “Cotari” Alban-Udin kilsəsi barədə məlumat verilib. Bildirilib ki, kilsə tarixi baxımdan qədim və əhəmiyyətli abidələrdən biridir. Nic qəsəbəsi tolerantlığın kiçik bir modeli hesab edilir. Qəsəbədə üç kilsə və iki məscid var. Altı min əhalisi olan qəsəbədə 3700 udin yaşayır. Ümumilikdə isə ölkəmizdə 4000 udin yaşayır ki, onların 300-ü Oğuz və Bakıda qeydiyyatdadır. Dünyada yaşayan udinlərin sayı isə 10 minə yaxındır. Nic qəsəbəsində udinlər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar. Nicdəki məktəblərin ibtidai siniflərində udin dili tədris olunur.

Həmçinin şagirdlər Çuxur Qəbələ kəndinə gəlib, qədim Qəbələ şəhərinin xarabalıqları və ərazidə aparılan arxeoloji qazıntılarla da maraqlanıblar.

Məktəblilər Qəbələyə səfərlərinin sonunda beşulduzlu “Qafqaz Riverside”, “Qafqaz Resort”, “Qafqaz Yeddi Gözəl”, “Qafqaz Karvansaray” hotelləri, “Qəbələnd” İstirahət və Əyləncə Mərkəzi, rayonda yaradılan müasir turizm infrastrukturu, bölgənin füsunkar təbiəti ilə də tanış olublar.

Şagirdlər xoş təəssüratlarla Şəki şəhərinə yola düşüblər.

**AZƏRTAC**